# Ana dilinə dövlət qayğısı

> ***Dilin mədəniyyətdə, milli varlığın mühafizəsində oynadığı müqayisəedilməz roluna dair dünya xalqlarının mütəfəkkirləri tərəfindən söylənilmiş saysız-hesabsız nümunələr gətirmək mümkündür. Yekdil fikir budur ki, dil hər bir milli mədəniyyətin canı, cövhəridir. Dil milli mədəniyyətin ən mühüm və davamlı daşıyıcısıdır. Dil milliyyətin təyinində başlıca amildir.***

Ana dili xalqın ruhudur, mənəvi dünyasıdır, psixologiyasıdır. Yaradıcılığında dil mövzusuna geniş yer ayıran xalq şairimiz Bəxtiyar Vahabzadə bu fikri belə bir qəti inamla ifadə edir ki, insan ən dərin və ən incə hisslərini yalnız anasından öyrəndiyi, orta məktəbdə möhkəmləndirdiyi dil vasitəsilə ifadə edə bilər. Bir sözlə, ana dili - özünü və dünyanı ifadə dilidir. “Mən ana dilində yazıram, ona görə ki, mən yalnız bu dildə öz fikir və duyğularımı ifadə edə bilərəm. Bu mənada bu dil mənim yaradıcılıq taleyimdir”.

Dilin mədəniyyətlə, xalqın davranış və yaşam tərzi ilə bağlılığını tədqiq edən dilçilik məktəblərinin demək olar ki, bütün nümayəndələri bu qənaətdədirlər ki, dil xalq ruhunun xarici təzahürüdür, mənəvi sərvətidir, elə bir güzgüdür ki, xalqın tarixi, dünyagörüşü, adət və ənənələri öz əksini həmin güzgüdə tapır. XIX əsrin alman dilçisi, fəlsəfi dilçilik məktəbinin banisi V.Humboldt bu barədə yazırdı ki, “Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir - bundan da güclü olan eynilik təsəvvür etmək çətindir”.

Müstəqillik yoluna qədəm qoymuş bütün ölkələrdə dil problemi həmişə aktuallıq kəsb etmişdir. Azərbaycan Respublikası da müstəqilliyini elan etdiyi ilk günlərdən həm ictimaiyyət, həm də dövlət tərəfindən dil məsələlərinə xüsusi diqqət yetirilmişdir.

Hələ 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətin ən mühüm təşəbbüslərindən biri - əlifba islahatı olmuşdur. Bu islahat onun maarifçilik fəaliyyətinin və xalq təhsili üzrə proqramlarının reallaşdırılmasına xidmət edirdi. 1919-cu ilin mart ayında X.Məlik-Aslanovun sədrliyi altında əlifba islahatı üzrə xüsusi komissiya yaradılmışdır. Təqdim olunmuş layihələrdən ancaq müəllim Abdulla bəy Əfəndiyevin təqdim etdiyi variant parlament tərəfindən bəyənilmiş və yeni əlifba üçün əsas kimi qəbul edilmişdir.

Qeyd edək ki, Xalq Cümhuriyyəti dövründə milli dirçəliş naminə, eyni zamanda maarif və mədəniyyətin inkişaf etdirilməsi yolunda dil əsas amillərdən sayılmış və onun həyata keçirilməsi üçün mümkün olan bütün imkanlardan istifadə edilmişdir.

Sovet dövründə də, nə qədər ziddiyyətli və qərəzli olsa belə, dil məsələləri həmişə diqqət mərkəzində saxlanılmışdır. 1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni Əlifba Komitəsi yaradılmış, həmin komitəyə dilimiz üçün latın qrafikalı əlifba tərtibi tapşırılmışdır. 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirilmiş və 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji qurultayın tövsiyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edilmişdir.

Təəssüflər olsun ki, imperiya ideologiyasının acı nəticələri dil və əlifba sahəsində də özünü qabarıq büruzə vermişdir. Belə ki, Türkiyə Respublikasında 1929-cu ildən etibarən latın qrafikalı əlifbaya keçilməsi məqsədləri ilə Kommunist Partiyasının SSRİ-də yaşayan türk xalqlarının bir-birindən (həmçinin Türkiyə Respublikasından) təcrid edilməsi niyyətlərinin üst-üstə düşməməsi səbəbindən Azərbaycanda on ildən artıq işlədilən həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olunmuşdur.

Nəhayət, müstəqilliyimizin bərpasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni imkanlar yaratdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. 1991-ci ildən etibarən tədricən latın qrafikalı (kirillə yanaşı) Azərbaycan əlifbasına keçid prosesi ölkəmizdə 2001-ci ilin avqust ayında bütünlüklə təmin edildi və yeni əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alan ölkə prezidenti Heydər Əliyev “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 9 avqust



2001-ci il tarixli fərman imzaladı. Fərmanda hər il avqustun 1-nin Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilməsi qərara alınmışdır.

Dövlət dilimizlə bağlı son illərin ən mühüm hadisələrindən biri isə “Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu”nun qəbulu oldu. Qanunda göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır.

Bu qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquq statusunu nizamlayır.

“Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 2 yanvar 2003-cü il tarixli fərmanı, mədəniyyətimiz tarixində əlamətdar hadisələrdəndir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamının bu günlərdə real nəticələr verməsi isə dövlətimizin dil məsələlərinə nə qədər ciddi yanaşdığını və qayğı bəslədiyini sübut etməkdədir.

Ana dilimiz, dövlət dilimiz, əlifbamızla bağlı qəbul olunmuş qanun, fərman və sərəncamların hər biri Azərbaycan dilinin, ədəbiyyatının və mədəniyyətinin perspektivlərini müəyyənləşdirmək, böyük tarixi təcrübəyə əsaslanaraq inkişaf yollarını müəyyən etmək baxımından olduqca qiymətli sənədlərdir. Bu sənədlərdə mühafizə və təbliğ olunan əsas ideyalar ümummilli liderimiz Heydər Əliyevin - yeni ilin, yeni əsrin və yeni minilliyin astanasında “Azərbaycan xalqına müraciət”i kimi tarixi bir əsərdə öz parlaq ifadəsini tapmışdır: “Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”.

**FATİMAT MƏMMƏDOVA,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi**